Xalq qəzeti 2020.- 17 yanvar.- S.1.

*Bütövlükdə 2019-cu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, ölkəmizin dayanıqlı inkişafı təmin olundu. Beləliklə, həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilmişdir. Azərbaycan sabitlik şəraitində yaşamışdır. Sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



# Azərbaycan dünyada sabitlik və təhlükəsizlik məkanı kimi tanınır

Şübhəsiz ki, qeyd edilən strategiyanın uğurla reallaşdırılmasının nəticəsidir ki, artıq Azərbaycan beynəlxalq aləmdə tam müstəqil siyasət yürüdən ölkə kimi qəbul olunur. Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu var. Ötən illərdə respublikanın milli inkişaf strategiyası, siyasi-iqtisadi, mədəni-mənəvi təkamül konsepsiyası, vahid ideologiyası formalaşmışdır. Dövlətin milli maraqlara əsaslanan diplomatiyası, demokratikləşmə, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də məhz milli müstəqilliyin praktik olaraq gerçəkləşdirilməsini təmin etmişdir.

**Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin böyük müdrikliklə irəli sürdüyü inkişaf strategiyasını inamla davam etdirməklə yanaşı, onu yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına çalışmışdır. Dövlətimizin başçısının prezidentliyi dövründə məhz bu prinsip daim əsas götürülmüş, iqtisadiyyat həyata keçirilən çoxşaxəli islahatların əsas ağırlıq mərkəzini təşkil etmişdir. Başqa sözlə, praqmatik liderlik keyfiyyətlərinə malik olan Prezident İlham Əliyev keyfiyyətcə yeni mərhələdə Azərbaycanın müasir dövlətə çevrilməsini və tam müstəqil siyasət yürütməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirmişdir. İqtisadi məsələlərə xüsusi diqqətin ayrılması da əsaslı yanaşma olaraq dövlət müstəqilliyinin iqtisadi bazisini möhkəmlətmək, cəmiyyətin davamlı inkişafı üçün zəmin hazırlamaq məqsədindən irəli gəlmişdir.**

Yanvarın 13-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə də bu barədə ətraflı bəhs edilmişdir. Dövlətimizin başçısı bildirmişdir ki, 2019-cu ildə qarşıya qoyulan bütün vəzifələr yüksək səviyyədə yerinə yetirilmiş, ölkəmizin dayanıqlı inkişafı təmin olunmuş, siyasi, sosial-iqtisadi sahələrdə böyük uğurlar qeydə alınmışdır. Azərbaycan sabitlik şəraitində yaşamışdır. Sabitlik isə hər bir ölkənin inkişafı üçün əsas şərtdir.

Azərbaycan Prezidenti daha sonra demişdir: “Biz il ərzində müxtəlif yerlərdə gərginliyin artmasını görürdük. Qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması – bütün bunlar dünyanın demək olar ki, bütün yerlərində müşahidə olunurdu. Avropada, Asiyada, Latın Amerikasında, postsovet məkanında, bizim bölgəmizdə, Yaxın Şərqdə, dünyada gərginlik artır. Azərbaycan isə sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan xalqının iradəsi Azərbaycanda sabitliyin əsas təminatçısıdır”.

Ümumiyyətlə, Prezident İlham Əliyev ayrı-ayrı çıxışlarında sosial-iqtisadi uğurlarımızı ölkədə yaşanan sabitliklə əlaqələndirmişdir. Dövlətimizin başçısı dəfələrlə bildirmişdir ki, sabitlik olmadan heç bir dövlət inkişaf edə bilməz. Bu, aksiomadır. Bunu yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf da zəifləyir, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, sərmayə qoyuluşu dayanır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Respublikada isə sabitliyin mənbəyi xalqdır, onun iradəsidir və eyni zamanda, aparılan siyasətdir. Çünki Azərbaycanda reallaşdırılan siyasət milli maraqlara söykənir, milli maraqlar hakimiyyət üçün hər şeydən üstündür. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq arenadakı artan rolu sabitliyin təminatçısıdır.

Şübhəsiz ki, xalq belə şəraitdə öz Prezidentini sevir, onun arxasında dayanır. Dövlətimizin başçısı da bu amili daim yüksək qiymətləndirir, məmurlardan xalqa nümunəvi xidmət göstərməyi tələb edir. Eyni zamanda, özü də deyir: “Mən Prezident kimi öz vəzifəmi bunda görürəm – xalqa xidmət etmək. Məhz bu xidmətə görə Azərbaycan əhalisi bizə çox böyük dəstək göstərir”.

Ölkə Prezidenti sözügedən müşavirədə diqqəti bu məsələyə bir daha yönəldərək, bildirmişdir: “Xalq tərəfindən bizə göstərilən dəstək, bizim siyasətimizə verilən yüksək qiymət həm bizi daha da ruhlandırır və eyni zamanda, ölkəmizdə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Sabitlik pozulanda ölkələrdə böhran, xaotik proseslər baş verir, ölkələr böyük zərər görürlər. Biz bunu 1990-cı illərin əvvəllərində öz tariximizdə görmüşük. Azərbaycanda sabitlik pozulmuşdu, ölkə böhran içində idi, bizim böyük itkilərimiz olmuşdur. Amma artıq 26 ildir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkəmiz çox böyük inkişaf yolu keçmişdir. Deyə bilərəm ki, ölkəmiz ərə bərabər inkişaf yolu keçmişdir və bu gün Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır”.

Bəli, son 16 ildə Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, ölkədə xalq-iqtidar birliyi hökm sürür. Bu birlik beynəlxalq təşkilatlar tərəfindən də yüksək dəyərləndirilir. Məsələn, Dünya İqtisadi Forumunun Hesabatının “Siyasətçilərə ictimai etimad” adlanan kateqoriyasında Azərbaycanda iqtidarla xalq arasında böyük etimadın mövcudluğunun təsbit edildiyi, belə bir etimadın isə ictimai-siyasi və iqtisadi sabitliyi möhkəmləndirdiyi vurğulanır.

Yeri gəlmişkən, sözügedən hesabatın adıçəkilən kateqoriyası üzrə Azərbaycan “Böyük iyirmilik” ölkələrinin hər 4-dən 3-nü geridə qoymuşdur. Bu kateqoriyada Azərbaycan bütün BRICS ölkələrini, postsovet respublikalarını və türk dövlətlərini qabaqlamışdır.

Dünya İqtisadi Forumunun “Qlobal Rəqabətlilik Hesabatı”nda da “Siyasətçilərə ictimai etimad” kateqoriyası üzrə Azərbaycanın 137 ölkə arasında 20-ci pilləyə yüksəlməsi Prezident İlham Əliyevin siyasətinə əhalinin yüksək etimadının göstəricisi olmaqla yanaşı, həm də beynəlxalq ictimaiyyətin layiqli qiymətidir.

Xalq-iqtidar birliyini möhkəmləndirən səbəblər arasında bir faktı da qeyd etmək istərdik. Belə ki, Prezident İlham Əliyevin milli maraqlara söykənən siyasəti nəticəsində 2015-ci ildən başlayaraq neft qiymətlərinin kəskin düşməsinə baxmayaraq, Azərbaycanda heç bir sosial layihə dayandırılmamışdır, əksinə, son16 il ərzində - 2003-2019-cu illərdə iqtisadiyyat üç dəfədən çox artmış, yoxsulluq təxminən 50 faizdən 5 faizə düşmüşdür. Xarici dövlət borcu ən aşağı səviyyəyə enmiş, ümumi daxili məhsulun cəmi 17 faizini təşkil etmiş və bu göstəriciyə görə Azərbaycan dünya miqyasında doqquzuncu yerdə qərarlaşmışdır.

Prezident İlham Əliyevin daim xalqla bir yerdə olması, xalqın maraqlarını ifadə etməsi, verilən tapşırıqların icrası ilə yerində maraqlanması, dövlət xidmətlərin keyfiyyətinin və əlçatarlılığının daim artırılması, ölkə rəhbərinin tapşırığı ilə mərkəzi hakimiyyət qurumları nümayəndələri rəhbərlərinin regionlarda mütəmadi keçirdikləri görüşlər, biznesə yaradılan münbit şərait, xarici siyasətdə uğurlar, ordu quruculuğu və düzgün kommunikasiya siyasəti xalqın dövlət institutlarına etimadını yüksəldir.

Hazırda qarşıda duran ən mühüm məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu gün ölkədə aparılan hər bir iqtisadi islahatın əsasında sosial problemlərin aradan qaldırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və hər bir vətəndaşın rifahının artırılmasına imkan verən mühitin yaradılması məqsədi dayanır. Belə bir mühitin yaradılması isə dayanıqlı iqtisadi inkişafın reallaşdırılması, maliyyə sisteminin, sahibkarlıq mühitinin inkişaf etdirilməsi, insanların hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi yolu ilə, həmçinin sosial problemlərin birbaşa həllinə yönələn tədbirlər vasitəsilə həyata keçirilə bilər.

Son 16 ildə Azərbaycan bütün sahələrdə öz nümunəsini ortaya qoyaraq özünü dünyaya güclü, müstəqil və müasir inkişaf edən ölkə kimi tanıtmışdır. Dövlət rəhbəri bəyan etmişdir ki, qarşıda duran strateji vəzifə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək və bütün sahələr üzrə onu dünyanın inkişaf etmiş, rəqabətədavamlı ölkələri sırasına çıxarmaqdır. Ölkəmizin iqtisadi inkişaf dinamikası əvvəlcə resurslara əsaslanırdısa, hazırda iqtisadi şaxələndirmənin nəticəsi olaraq qeyri-neft sektoru üstün artım tempinə malikdir. Dünyanın iqtisadi cəhətdən qabaqcıl dövlətlərinin onilliklər boyu keçdiyi inkişaf mərhələlərini qısa zaman kəsiyində sürətlə adlamış Azərbaycan azad və mütərəqqi düşüncə tərzinin diktə etdiyi bazar iqtisadiyyatı, demokratiya və vətəndaş cəmiyyəti quruculuğu yoluna sadiqliyini sübuta yetirmişdir.

***“Xalq qəzeti”***